

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 72 (21.482)

*21 aprel 2016-cı il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 20-də Bakının Nəsimi rayonunun Səməd Vurğun və Bakıxanov küçələrinin kəsişməsindəki ərazidə yeni salınmış istirahət parkında yaradılan şəraitlə tanış olublar.

Park salınmazdan əvvəl bu ərazi paytaxtın müasir simasına uyğun deyildi. Məhz buna görə də bu ərazidə yeni parkın salınması layihəsinin icrasına başlanılıb.

Yeni parkın salınması ərazinin simasını tamamilə dəyişib və paytaxt sakinlərinin istirahəti üçün müasir tələblərə cavab verən daha bir istirahət guşəsi yaradılıb.

Parkda görülən işlər barədə dövlətimizin başçısına məlumat verilib. Ümumi ərazisi 10 min kvadratmetrə qədər olan yeni parkın salınmasında yüksək keyfiyyətli tikinti materiallarından istifadə edilib. Parkın 5 min kvadratmetr ərazisində yaşıllıq zolağı salınıb, çoxlu sayda şam, zeytun və çinar ağacları əkilib. Parkda, həmçinin müasir standartlara uyğun işıqlandırma sistemi quraşdırılıb.

İstirahət guşəsində müasir iaşə obyektləri də inşa edilib. Bu obyektlərin tikintisində sınmayan, təhlükəsiz şüşələrdən istifadə olunub. İaşə obyektləri də müasir tələblərə cavab verən işıqlandırma sistemi ilə təchiz edilib. Parkda istirahət üçün hər cür şərait yaradılıb.

Görülən işlərlə yaxından tanış olan dövlətimizin başçısı müvafiq tapşırıqlarını verib.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Türkiyə Respublikası Ali Məhkəməsi sədrinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür





Aprelin 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikası Ali Məhkəməsinin sədri İsmayıl Rüştü Cirit və onu müşayiət edən nümayəndə heyəti ilə görüşmüşdür.

Qonaqları salamlayan Ali Məclisin Sədri onları Naxçıvanda görməkdən məmnunluğunu bildirmişdir. Naxçıvanın muxtariyyət tarixi, dövlət quruluşu, əhalisi, sərhədləri və sosial-iqtisadi inkişafı haqqında məlumat verən Ali Məclisin Sədri demişdir ki, Ermənistanın işğalçılıq siyasətinə baxmayaraq ötən əsrin 90-cı illərində ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan qorunub saxlanılmış və ölkəmizin hərtərəfli inkişafının əsası qoyulmuşdur. Hazırda Azərbaycan Prezidenti tərəfindən bu yol uğurla davam etdirilir, Naxçıvanın təhlükəsizliyinə və inkişafına xüsusi diqqət yetirilir.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasındakı uğurlu əməkdaşlıqdan danışan və qardaş ölkəyə səfərini xatırladan Ali Məclisin Sədri Naxçıvanın türk dünyasının qapısı kimi mühüm strateji mövqeyə malik olduğunu diqqətə çatdırmış, Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünün Naxçıvanda keçirildiyini və burada "Naxçıvan" bəyannaməsinin qəbul olunduğunu, əlaqələrin müxtəlif istiqamətlərdə inkişaf etdirildiyini bildirmişdir.

Ali Məclisin Sədri Türkiyə Respublikası Ali Məhkəməsi sədrinin rəhbərlik etdiyi nümayəndə heyətinin muxtar respublikaya səfərinin də əlaqələrin inkişafı baxımından faydalı olacağına əminliyini ifadə etmişdir.

Nümayəndə heyətinə göstərilən səmimi münasibətə görə Ali Məclisin Sədrinə minnətdarlıq edən Türkiyə Respublikası Ali Məhkəməsinin sədri Azərbaycana səfəri müddətində bir sıra görüşlər keçirdiyini bildirmişdir. Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə müşahidə olunan inkişafın məmnunluq doğurduğunu bildirən qonaq qeyd etmişdir ki, məhkəmə-hüquq sistemində qarşılıqlı fəaliyyətin genişləndirilməsi əməkdaşlıq üçün yeni imkanlar açacaqdır.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Sonra qarşılıqlı hədiyyələr təqdim olunmuş, xatirə şəkli çəkdirilmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev və Türkiyə Respublikasının Naxçıvandakı baş konsulu Nihat Ərşən görüşdə iştirak etmişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Türkiyə Respublikası Ali Məhkəməsi sədrinin başçılıq etdiyi nümayəndə heyəti Naxçıvanla tanış olmuşdur





Türkiyə Respublikası Ali Məhkəməsinin sədri İsmayıl Rüştü Ciritin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində qədim diyarın tarixi-memarlıq abidələri, muzeyləri, görməli yerləri ilə tanış olmuşdur.

Türkiyəli qonaqlar əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət etmişlər. Qonaqlar muzeydə ümummilli liderin həyatının müxtəlif dövrlərini əks etdirən stendlərə, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrə aid rəsmi sənəd və materiallara, məktublara, Azərbaycan Respublikasının müxtəlif bölgələrində yaşayan vətəndaşların müraciətlərinə, ulu öndərə məxsus şəxsi əşyalara baxmışlar.

Duzdağ Fizioterapiya Mərkəzi ilə tanışlıq zamanı qonaqlara məlumat verilmişdir ki, 1979-cu ildə qədim duz mədənlərinin bazasında yaradılan bu mərkəz təbii müalicə ocağıdır. Buradakı duz şaxtalarında bronxial-astma və tənəffüs yollarının qeyri-spesifik xəstəliklərindən əziyyət çəkən insanlar müalicə olunurlar. Xəstələrə həkimlər tərəfindən müxtəlif müalicə kursları tətbiq edilir.

Naxçıvan şəhərindəki Əcəmi seyrəngahında yerləşən "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi də qonaqların böyük marağına səbəb olmuşdur.

Naxçıvan Biznes Mərkəzində nümayəndə heyətinə muxtar respublikanın iqtisadi sahədə əldə etdiyi nailiyyətlər barədə məlumat verilmişdir. Bildirilmişdir ki, mərkəzdə muxtar respublikada istehsal olunan məhsullar sərgilənir. Burada hazırda 86 müəssisənin 300-dən çox növdə və 1000-ə yaxın çeşiddə məhsulu nümayiş olunur. Sahibkarlığa göstərilən dövlət qayğısı sayəsində muxtar respublikada ümumi daxili məhsul istehsalında özəl sektorun payı 87 faizi ötmüşdür.

"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində türkiyəli qonaqlara Naxçıvan şəhərinin tarixi, arxeoloji abidələri haqqında məlumat verilmişdir. "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində isə qonaqlara məlumat verilmişdir ki, müqəddəs "Qurani-Kərim"də Əshabi-Kəhflə bağlı ayələr əksini tapmışdır.

Türkiyə Respublikası Ali Məhkəməsinin sədri İsmayıl Rüştü Ciritin rəhbərlik etdiyi nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına səfəri dünən başa çatmışdır.

**"Şərq qapısı"**

# Naxçıvan turistlərini gözləyir

## *Qədim diyarımız turizm mərkəzidir*



***Turizm haqqında danışarkən onun cazibədarlığı və iqtisadi inkişafdakı rolundan bəhs edir, bu sahənin daha da inkişaf etdirilməsi üçün yollar axtarırıq. Azərbaycan torpağının bütün gözəlliklərinin dünyaya tanıdılması baxımından Naxçıvanın zəngin turizm imkanlarını da unutmamalıyıq. Naxçıvan Muxtar Respublikasının coğrafi mövqeyi, özünəməxsus iqlimi, fauna və florası, qədim tarixə malik mədəniyyət abidələri burada turizmin inkişafı üçün əlverişli şərait yaradır.***




Qədim dövrlərin yadigarı olan abidələr – Möminə xatın, Qarabağlar, Yusif Küseyiroğlu, Gülüstan türbələri, qədim insanların ilk məskunlaşdığı yaşayış yerləri – Gəmiqaya, Kilit mağarası, Naxçıvanın əzəmət, məğlubedilməzlik simvolu olan Əlincə qalası, möhtəşəmliyi ilə seçilən Haçadağ, misilsiz təbiət abidələri olan Göy-göl, Babək qalası, Əshabi-Kəhf kimi yüzlərlə tarixi-mədəni abidələr, eləcə də əsrlərdən bəri qorunub saxlanılan, yaşı 800 ildən artıq olan çinarlar, narbənd və tut ağacları Naxçıvan diyarının analoqu olmayan turizm potensiallarındandır.

Həmçinin ərazidə 250-dən çox mineral və müalicəvi əhəmiyyətli su mənbələrinin mövcudluğu muxtar respublikada turizmin inkişafı üçün geniş imkanların olduğunu açıq şəkildə ortaya qoyur. Naxçıvanın turizm imkanları ilə digər rayon və şəhərlərimizi müqayisə etmək belə, mümkün deyil. Çünki qədim Naxçıvan özünün mövcud imkanları ilə digər turizm bölgələrimizi bir çox sahələrdə qabaqlayır.

Lakin çox təəssüflər olsun ki, keçmiş SSRİ dövründə Türkiyə və İranla həmsərhəd olan və strateji ərazidə yerləşən Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına imkan verilməyib. Bu səbəbdən dünyada çox mühüm əhəmiyyət kəsb edən sahələrdən biri kimi turizmin inkişafı muxtar respublikada yeni-yeni formalaşmaqdadır.

Ulu öndərimiz Heydər Əliyevin qədim Naxçıvanın sosial-iqtisadi inkişafı ilə bağlı arzuları bu gün reallaşmaqdadır. Ölkə Prezidenti cənab İlham Əliyevin Naxçıvana diqqət və qayğısı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun yorulmadan ortaya qoyduğu əmək sayəsində bu gün təkcə Naxçıvan şəhəri deyil, bütövlükdə muxtar respublikanın hər bir bölgəsi tamamilə dəyişib.

Son illər Naxçıvan Muxtar Respublikasında bu sahədə fəaliyyət genişləndirilmiş, mövcud turizm potensialının inkişafına nail olunmuşdur. Naxçıvan şəhəri və rayon mərkəzləri ilə yanaşı, bölgənin ən ucqar kəndlərinə belə, rahat yollar çəkilib, avtobuslar, taksi və qatarlar vasitəsilə bütün rayonlara və kəndlərə gediş-gəliş asanlaşıb. Hər gün Naxçıvan şəhərindən və Şərur rayonundan sərnişin avtobusları İran İslam Respublikası ərazisindən keçməklə Bakı şəhərinə və əks istiqamətə yola düşür. Həmçinin Naxçıvan Beynəlxalq Hava Limanında Bakı, Gəncə, Moskva və İstanbul reysləri üzrə uçuşlar həyata keçirilir. Bir sözlə, muxtar respublikanın rayonlarının, şəhər, qəsəbə və kəndlərinin inkişafı istiqamətində görülən işlər, nəqliyyat infrastrukturunun genişləndirilməsi, yaradılan müasir turizm obyektləri imkan verir ki, dünyanın müxtəlif ölkələrindən bu diyara üz tutan turistlərə yüksək xidmət göstərilsin.



Builki turizm mövsümünün başlangıcı ərəfəsində muxtar respublikada turizmin inkişaf etdirilməsi üzrə verilmiş tapşırıqların icra olunması və artıq mart ayının ortalarından etibarən Naxçıvana axışıb gələn əcnəbi turistlərin sayındakı artım turizm mövsümünün yaxşı başladığına və qarşıdakı dövrdə daha böyük nəticələrin əldə ediləcəyinə işarədir desək, yanılmarıq.

Turistlərdə Naxçıvanın möhtəşəm tarixi abidələr və müasir tikililərlə süslənmiş gözəl şəhərləri, bu yurdun insanlarının qonaqpərvərliyi haqqında təəssüratlar aşılamaq istəyiriksə, vəzifəsindən asılı olmayaraq, hər kəs əlini daşın altına qoymalıdır. Çünki Naxçıvanımıza əcnəbi turistlərin cəlbi təkcə iqtisadi gəlir əldə etmək deyil, həm də bu qədim Azərbaycan torpağının tarixinin, zəngin mədəniyyətinin və özünəməxsus adət-ənənələrinin tanıdılması üçün də əldə olunan bir imkandır. Bu məsələdə muxtar respublikanın turizm agentlikləri ilə yanaşı, mərkəz Bakıda fəaliyyət göstərən turizm şirkətləri də boş dayanmamalı, ölkəmizə gəlmək istəyən qonaqların Azərbaycanın tərkib hissəsi olan Naxçıvanı seçmələri üçün səylərini artırmalı, bu qədim diyarın zəngin turizm potensialının təbliğatı gücləndirilməlidir.

Naxçıvan şəhərində tez-tez rastlaşdığımız turistlərin təəssüratlarından və turizm üzrə səlahiyyətli orqanların nümayəndələri ilə aparılan söhbətlərdən də belə qənaətə gəlmək olar ki, ölkəmizə səfər edən əcnəbi turistlərdə muxtar respublikaya maraq artıb.

Həqiqətən, son illər muxtar respublikamızın turizm potensialının inkişafı, Naxçıvana səfər edən turistləri bir daha buraya cəlb etmək üçün çox işlər görülüb. Hər il mart ayında bir neçə gün davam edən açıq hava konsertləri, rəsm və sənətkarlıq nümunələri sərgiləri, milli yeməklərin hazırlanması, gəzinti, alış-veriş və əyləncə tədbirlərinin





həm naxçıvanlılar, həm də turistlər üçün maraqlı olduğunun dəfələrlə şahidi olmuşuq. Bu imkanlardan istifadə edərək turist axınının sayını daha da artırmaq olar.

Turizm xidmətlərinin zərf halında cəmləşdiyi mühüm xidmət müəssisəsi mehmanxanalardır. Məhz mehmanxanalarda qonaqların gecələməsindən başqa, onlara lazım olan müxtəlif məişət, əyləncə və sağlamlıq, rabitə və işgüzar xidmətlər təklif edilməlidir. Naxçıvan Muxtar Respublikasında mövcud olan mehmanxanalar bu xidmətləri Avropanın müxtəlif turizm mərkəzlərində mövcud olan mehmanxanalardan daha yüksək formada göstərmək gücündədirlər. Lakin turizmdən gözlənilən bütün nəticələrin yükünü təkcə mehmanxanaların üzərinə yönəltmək düzgün olmazdı.

Belə ki, mehmanxana xidmətləri turistlər üçün vacib olsa da, bu, asudə vaxtın mənalı keçirilməsi üçün kifayət etmir. Başqa sözlə, turistlər yalnız mehmanxanalarda gecələmək üçün səyahət etmirlər. Deməli, uğurlu turizm təsərrüfatı mehmanxana, nəqliyyat, restoran və məzmunlu tur-ekskursiya xidmətlərinin bir-birini tamamladığı bir mexanizm kimi işləməlidir. Bu mütəşəkkillik yerli əhalinin qonaqpərvərliyi ilə müşayiət olunduqda, turizm istənilən bazar şəraitində öz işinə davam edən bir sənaye halına gələcəkdir.

Söz mehmanxanalardan düşmüşkən qeyd edək ki, Avropadan olan müştərilər onlayn rezervasiya sistemi ilə əvvəlcədən yer sifariş etməyə daha çox üstünlük verirlər. Necə ki, ötən il may ayının 19-dan 30-dək Polşa və Almaniyadan olan 60-a yaxın turist təkcə bir otel üçün belə bir rezervasiyadan yararlanıb.

Muxtar respublikanın turizmi ilə bağlı apardığımız araşdırma zamanı diqqəti çəkən bir məqam da turistlərə texniki xidmətlə bağlıdır. Turistlərin istəkləri nəzərə alınaraq onlara hava limanı və gömrük məntəqələrindən transfer, tam pansion və ekskursiya xidmətləri təklif edilir. Turistlər təklif olunan marşrutları və buradakı zərf xidmətlərini maraqla qarşılayırlar.

Yuxarıda qeyd etdiyimiz kimi, son illər muxtar respublikada infrastrukturun yaxşılaşdırılması istiqamətində xeyli işlər görülmüş, şəhər və rayonlarda milli və müasir memarlığı özündə cəmləşdirən istirahət parkları və bulaq-abidə kompleksləri istifadəyə verilmişdir. Müasir tələblərə cavab verən mehmanxanaların tikilməsi, yeni abidələrin ucaldılması, qədim memarlıq abidələrinin bərpa edilərək əvvəlki görkəminə qaytarılması, o cümlədən dünyada analoqu olmayan Duzdağ Fizioterapiya Mərkəzi və Darıdağ Arsenli Su Müalicəxanasının müasir tələblər səviyyəsində yenidən qurulması ilə muxtar respublikanın turizm sahəsində canlanma başlandı.






2008-ci ilin iyun ayında istifadəyə verilən Duzdağ Fizioterapiya Mərkəzində müayinə, müalicə və istirahət üçün hər cür şərait yaradılıb. Mərkəzdə eyni zamanda yüzdən artıq insana yüksək xidmət göstərilməsi üçün bütün imkanlar mövcuddur.

Naxçıvan Muxtar Respublikasının turizm potensialını araşdıran zaman diqqətimizi çəkən başqa bir amil isə turistlərin marağına uyğun turizm marşrutlarının hazırlanmasıdır. Bunlara misal olaraq Naxçıvan şəhər turu, Naxçıvan-Xanəgah (Əlincəqala da daxil olmaqla), Naxçıvan-Qarabağlar, Naxçıvan-Əshabi-Kəhf, Naxçıvan-Ordubad, Naxçıvan-Batabat turist marşrutlarını qeyd edə bilərik. Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu da bu bölgədə yerləşir. Bu günədək Akademik Həsən Əliyev adına Ordubad Milli Parkına 8, muxtar respublikanın digər bölgələrinə isə 5 istiqamət üzrə turist marşrutları işlənib hazırlanıb.

Turistlərin ilk olaraq Əshabi-Kəhf ziyarətgahına, Naxçıvanqalaya, Duzdağ şaxtalarına, Möminə xatın məqbərəsinə və digər görməli yerlərə böyük maraq göstərdiyini bilirik. Əsas vacib olan məqamlardan biri turistləri təkcə Naxçıvan şəhərində deyil, bütövlükdə muxtar respublika ərazisində mövcud olan tarixi-memarlıq abidələri ilə tanış etməkdir. Bunun üçün də hazırlanan tur zərflərinin tərkibi genişləndirilməlidir.

Məqaləni hazırlayan zaman turistlərin qədim Naxçıvana marağının artırılması üçün daha hansı yeniliklərin olduğunu da öyrənmək istədik. Məlumat verildi ki, "Babaların tarixi zəfər və şəhadət yolu" beynəlxalq turist marşrutunun açılması nəzərdə tutulur.

Son olaraq qeyd edək ki, 2015-ci ildə muxtar respublikaya Azərbaycanın digər bölgələrindən və xarici ölkələrdən, ümumilikdə, 390 minə yaxın turist gəlib. Bu da 2014-cü ildəki göstəricidən 3,1 faiz çoxdur. Görülən işlər isə onu deməyə əsas verir ki, 2016-cı ildə qədim diyarımıza daha çox yerli və əcnəbi turistlər səfər edəcək.

**Nahid CANBAXIŞLI**
***"Veteninfo.az" İnformasiya Agentliyinin təsisçisi və baş redaktoru***

***Ölkəmizdə makroiqtisadi sabitliyin qorunub saxlanılması, sahibkarlığın bütün sahələrinin inkişafı, ərzaq təhlükəsizliyinin təmin edilməsi, daxili mənbələr hesabına bazarın idxaldan asılılığının aradan qaldırılması, eləcə də yerli istehsalın gücləndirilməsi dövlətimizin iqtisadi siyasətinin əsas istiqamətlərindəndir.***

# Muxtar respublikada əlverişli sahibkarlıq mühiti yaradılıb




İnkişaf etmiş dünya dövlətlərində olduğu kimi, bizim ölkəmizdə də məhz belə iqtisadi siyasətin davamlı xarakter alması nəticəsində əhali işlə təmin olunur, insanların gəlirləri artır və maddi rifah halı yüksəlir. Bu mənada, dövlət başçısının sahibkarlığa yaratdığı münbit şərait iqtisadi sabitliyin və sosial dayanıqlılığın əsasını təşkil edir. Bu istiqamətdə qarşıya qoyulan vəzifələrin icrası üçün sahibkarlara əsas yol xəritəsi ölkə başçısının qəbul etdiyi regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarıdır. Ardıcıl olaraq qəbul olunan bu proqramların son dərəcə operativ, dəqiq və uğurla icra edilməsində isə muxtar respublikamız bir nümunə kimi göstərilə bilər. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq olunan "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)", "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" uğurla icra olunub, "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin vaxtında və yüksək tələbkarlıqla yerinə yetirilməsi sürətlə davam etdirilir.

Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində muxtar respublikada tarazlaşdırılmış iqtisadiyyat yaradılması günün reallığıdır. Dövlət dəstəyi ilə fəaliyyətə başlayan tikinti şirkətləri, artıq inkişaf yoluna qədəm qoymuş müxtəlif sənaye sahələri, çeşidi və həcmi çoxaldılan yerli məhsulların istehsalının davamlı xarakter alması makroiqtisadi göstəricilərin artmasına, iqtisadiyyatın inkişafına zəmin yaradıb. Sağlam sahibkarlıq mühitinin formalaşdırılması sayəsində regionumuzda ümumi daxili məhsul ötən on ildə dəfələrlə artıb.

Muxtar respublikada qəbul olunan dövlət proqramlarının uğurla icra edilməsi sahibkarların fəaliyyətinin genişləndirilməsinə müsbət təsir göstərib. Bu, hər bir iş adamının da diqqətini çəkir. Belə ki, bir tərəfdən bazarda yerli məhsullara qarşı istehlakçıların yüksək tələbatı, digər tərəfdən də dövlətin iş adamlarına davamlı maddi və mənəvi dəstəyi bu işin bilicilərini və həvəskarlarını "qol çırmalamağa" təşviq edib. Hər bir sahibkar yaradılan münbit şəraitdən, göstərilən dövlət qayğısından səmərəli istifadə etdikcə, arzularını reallaşdırdıqca, yaxşı nəticələr ortaya qoyduqca dövlət də onlara dəstəyini günü-gündən artırır.

Bu gün istehsal etdikləri məhsulları ilə alıcı rəğbəti qazanan iş adamlarının hər biri göstərilən dövlət dəstəyindən yararlanaraq, istehlakçı etimadını qazanaraq öz fəaliyyətini günün tələbləri səviyyəsində qurmağa səy göstərir. Belə sahibkarlardan biri ilə oxucularımızı tanış etmək istəyirəm.

Teymur Rzayev hələ ötən əsrin doxsanıncı illərindən başlayaraq bazarlarımıza məhsul çıxaran sahibkardır. Onun rəhbərlik etdiyi "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyətinin məhsulları muxtar respublika bazarlarında özünəməxsus yer tutub. Həm keyfiyyəti, həm də zövqlü qablaşdırılması ilə digər məhsullardan seçilən "Ləzzət" əmtəə nişanlı məhsullar qiymət baxımından da alıcı üçün sərfəlidir. Hazırda 35 adda, 88 çeşiddə məhsul istehsal edən "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyətə başladığı ilk illərdə istehsal müəssisəsində 10 nəfər işçi çalışırdısa, bu gün onların sayı dəfələrlə artıb. Cəmiyyətin tərkibində gündəlik istehsal gücü 18 ton olan kənd təsərrüfatı məhsullarının təmizlənməsi, çeşidlənməsi, qovurulması və paketlənməsi, 7 ton qənd, 2,4 ton olan vafli, peçenye, biskvit və digər qənnadı məmulatları, 45 gündə 135 ton quş əti istehsalı sahələri fəaliyyət göstərir. Müəssisənin məhsulları daxili tələbatı ödəməklə yanaşı, İran və Gürcüstana da ixrac olunur, Rusiya, ABŞ, Ukrayna, Türkiyə, Çin, Hindistan, İran və digər ölkələrdən olan 50-dən artıq istehsalçı firma ilə əməkdaşlıq edilir.

Bir cəhəti xüsusilə qeyd etmək lazımdır ki, məhsul istehsalı üçün sərf olunan xammala ehtiyac, əsasən, yerli əhalidən alınan məhsullar hesabına ödənilir. Bu da yerlərdə aqrar sektorun inkişafına, torpaq mülkiyyətçilərinin maddi marağının artmasına, istehsalın güclənməsinə, kənd adamlarının məşğulluğunun təmin olunmasına müsbət təsir göstərir. Məlumdur ki, torpaq mülkiyyətçiləri tərəfindən istehsal olunan lobya, noxud, günəbaxan və başqa bu kimi kənd təsərrüfatı məhsulları münasib qiymətə alınanda istehsalçının da alıcı problemi öz həllini tapmış olur. Digər tərəfdən də daxili bazara keyfiyyətli yerli məhsulların çıxarılması üçün münbit şərait yaranır. Deməli, "Ləzzət Qida Sənaye" MMC-nin fəaliyyət dairəsi genişləndikcə əhalinin tələbatına uyğun yüksəkkeyfiyyətli ərzaq mallarının istehsalı da artır. Bu isə mənşəyi məlum olmayan, insan sağlamlığına mənfi təsir göstərən məhsulların muxtar respublika bazarlarına daxil olmasının qarşısını alır.

Söhbət zamanı sadaladığım amilləri Teymur Rzayevin özü də təsdiq etdi və bir daha şahidi oldum ki, dövlətin sahibkarlığın inkişafına dəstəyi onlar üçün son dərəcə stimullaşdırıcı xarakter daşıyır. Bu məsələ ilə bağlı fikirlərini bizimlə bölüşən Teymur Rzayev bildirdi ki, biz elə də böyük bir iş görmürük. Yaradılan şəraitdən, dövlət qayğısından, yurdumuzun təbii sərvətlərindən istifadə edərək iqtisadi inkişafımıza dəstək olmağa çalışırıq. İstəyirik ki, dövlətimizin bizə olan etimadını doğruldaq və qeyri-neft sektorunun inkişafında müəyyən qədər payımız olsun. Bir nüansı nəzərinizə çatdırmaq istəyirəm. Qeyri-neft sektorunun inkişafı ilə bağlı kütləvi informasiya vasitələrində müxtəlif fikirlər, təkliflər səsləndirilir. Əsasən də sahibkarlığın inkişaf etdirilməsi üçün müxtəlif yollar, vasitələr haqqında danışılır. Fikrimcə, əvvəlcə işə başlamaq, sonra kömək istəmək lazımdır. Ümumiyyətlə, hər zaman ilk addım bir işi görməyə başlamaqdır. Çünki birinci nəyəsə təşəbbüs etməlisən ki, inkişafdan və dəstəkdən də danışa biləsən. Axı bir iş görülmürsə, dövlət hansı işə dəstək göstərsin? İllər öncə qarşımıza qoyduğumuz məqsədə çatmaq üçün heç kimdən kömək gözləmirdik. Həmin vaxtlarda yenicə müstəqillik qazanmışdıq. Hələ çətinliklərimiz, həll edilməli problemlərimiz çox idi. Ona görə də dövlət tərəfindən dəstək göstəriləcəyini düşünmürdük. Çalışırdıq ki, başladığımız işin yaxşı nəticəsini görə bilək. Həmişə xaricdən aldığımız məhsullardan daha yaxşısını öz yerimizdə istehsal etmək haqqında düşünürdük. Bu düşüncə ilə araşdırmalar, təhlillər aparırdıq. 1998-ci ildə bir ədəd istehsal avadanlığı aldıq və müəssisəmizin ilk məhsulu olan qənd istehsal etməyə başladıq. Bundan qısa zaman sonra heç gözləmədiyimiz bir vaxtda əməyimizə muxtar respublika rəhbəri tərəfindən böyük qiymət verildi. Belə ki, bizi bir neçə dövlət səviyyəli tədbirlərə dəvət etdilər. Sərgilərdə iştirakımız təmin olundu və məhsullarımız nümayiş etdirildi. Bir dəfə sərgilərdən birində Ali Məclis Sədrinin istehsal etdiyimiz məhsullara görə xoş sözlər deməsi bizi xeyli ruhlandırdı. Bundan sonra daha yaxşı işləməyə başladıq ki, göstərilən etimada layiq ola bilək. Beləcə, inkişaf yolunu tutduq. Daha yaxşı nəticələr ortaya qoyduqca, dövlətin bizə olan dəstəyi də artdı. Böyükhəcmli kreditlər verildi, müxtəlif mükafatlarla təltif olunduq. Zaman keçdikcə bizə göstərilən dəstək o qədər güclü şəkildə oldu ki, hətta ölkə başçısı tərəfindən də əməyimizə qiymət verildi, təltif edildik. Bütün bunların nəticəsində işimizi günün tələblərinə uyğun qurmaqla istehsalın kəmiyyətində və keyfiyyətində yüksək irəliləyişə nail olduq. İndi 6-7 xarici ölkəyə məhsul ixrac etmək imkanlarına sahibik.

Dövlətimizin böyük qayğısı, təcrübəsinə, zəhmətinə güvənib hələ illər öncədən öz istehsal müəssisəsini yaradan insanların əməyi, zəhməti sayəsində bu gün muxtar respublikamızda ərzaq təhlükəsizliyi tam təmin olunub.

Sahibkarlığın uzun illər ərzində genişlənməsi və inkişafına göstərilən qayğı sayəsində bu gün muxtar respublikada fəaliyyət göstərən istehsal müəssisələrində daxili bazar üçün məhsul istehsal etməklə yanaşı, ixracyönümlü məhsulların istehsalı üçün də stimul yaranıb. Bu istiqamətdə böyük uğurlar əldə edən "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyəti və digər bir neçə istehsalçı müəssisə tərəfindən ən yüksək standartlar səviyyəsində məhsul istehsal edilərək xarici bazarlara çıxarılırsa, bu, muxtar respublikada illər öncədən sənaye sahəsində reallaşdırılan islahatların nəticəsidir. Beləcə, tarixən aqrar region kimi formalaşan Naxçıvan Muxtar Respublikası aqrar-sənaye regionuna çevrilib. Sevindirici haldır ki, indi üzərində "Naxçıvan Muxtar Respublikası istehsalı" etiketli yüzlərlə adda məhsul təkcə ölkəmizdə deyil, yaxın regionlarda da tanınır. 1995-1996-cı illərdə yalnız 4-5 növ məhsula olan tələbatın az bir hissəsinin yerli istehsal hesabına ödənildiyi muxtar respublikamızda indi əhalinin 340-dan çox növ məhsula olan tələbatı daxili imkanlar hesabına ödənilir.

*Görünən iqtisadi mənzərəyə əsasən demək olar ki, muxtar respublikada ərzaq məhsulları istehsalının artırılması, əhalinin təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təminatı sahibkarlıq mühitinin yaxşılaşdırılmasına, yerli xammaldan səmərəli istifadəyə şərait yaradır. Ölkə Prezidentinin də qeyd etdiyi kimi,* ***"Yeni dövr yeni vəziyyət, yeni yanaşmalar tələb edir. Ona görə də indiki şəraitdə sahibkarlıq daha da genişləndirilməli, sahibkarlara daha yaxşı şərait yaradılmalı, yerli istehsalı sürətləndirmək üçün əlavə tədbirlər görülməlidir".***

**Şəhla NƏBİYEVA**

# İcbari sığortalar sahəsində görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə olunmuşdur

***Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyində Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi ilə birgə daşınmaz əmlakın və daşınmaz əmlakın istismarı zamanı mülki məsuliyyətin icbari sığortası sahəsində görülmüş işlər və qarşıda duran vəzifələrlə əlaqədar tədbir keçirilmişdir.***



Tədbirdə Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək bildirmişdir ki, "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, ölkəmizdə daşınmaz əmlakın və daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortasına nəzarət işləri Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinə həvalə olunmuşdur. Bu məqsədlə Naxçıvan Muxtar Respublikasında bu kateqoriyadan olan icbari sığorta müqavilələrinin bağlanılması üzrə verilmiş tapşırıqların yerinə yetirilməsi istiqamətində Dövlət Baş Sığorta Agentliyi Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi ilə birgə nəzarət tədbirlərinin artırılması, maarifləndirici görüşlər keçirilməsi istiqamətində öz səylərini artırmalıdır.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasında 2015-ci ildə icbari sığortalar üzrə görülmüş tədbirlər nəticəsində sahibkarlara məxsus daşınmaz əmlakın icbari sığortası üzrə 926 müqavilə, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə 548 müqavilə bağlanılmışdır. Ümumilikdə, hər iki sığorta növü üzrə sahibkarlarla 1474 müqavilə bağlanılmışdır. Cari ildə də bu istiqamətdə görülən işlərin nəticəsi olaraq sığorta müqavilələrinin bağlanılması davam etdirilməkdədir. Belə ki, cari ilin ilk üç ayında sahibkarlara məxsus daşınmaz əmlakın icbari sığortası üzrə 70, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə isə 99 müqavilə olmaqla, cəmi 169 müqavilə bağlanılmışdır.

Lakin bunlara baxmayaraq, göstərilən icbari sığorta növləri üzrə bəzi sahibkarların vaxtında sığorta müqavilələri bağlamaqdan yayınmaları hələ də müşahidə edilməkdədir. Belə hallara yol verilməməsi və sığorta müqavilələrinin vaxtında bağlanılaraq sahibkarların öz üzərlərinə düşən vəzifələri yerinə yetirməsini təmin etmək üçün hər iki dövlət qurumu bu işə diqqəti daha da artırmalı, izahat və maarifləndirmə işləri genişləndirilməlidir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Ehtiram Məmmədov qanuna uyğun olaraq Fövqəladə Hallar Nazirliyi tərəfindən hər iki icbari sığortalar üzrə müqavilələrin bağlanılmasına nəzarətin gücləndirilməsinin zəruriliyini qeyd etmiş, bu sahədə idarənin üzərinə düşən vəzifələrdən danışmışdır.

Tədbirdə şəhər, rayon Dövlət Sığorta agentliklərinin direktorları və Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin rəisləri çıxış etmişlər.

**✍ Əli CABBAROV**

# Növbəti əmək yarmarkası Şahbuz rayonunda keçirilib

***Şahbuz şəhərindəki "Araz" kinoteatrının binasında keçirilən tədbiri rayon Məşğulluq Mərkəzinin direktoru Fəxrəddin Bağırov açaraq muxtar respublikada həyata keçirilən məşğulluq tədbirlərindən danışıb.***

Bildirilib ki, görkəmli dövlət xadimi Heydər Əliyevin müəyyənləşdirdiyi məşğulluq strategiyası bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasının uğurla başa çatdırılması əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təmin olunmasında mühüm rol oynayıb. Bu sahədə görülən işlər muxtar respublika sakinləri tərəfindən insan amilinə, onun layiq olduğu səviyyədə yaşamasına qayğı kimi dəyərləndirilir.

Qeyd olunub ki, əhalinin məşğulluğunun təmin edilməsində əmək yarmarkalarının xüsusi rolu var. Belə ki, məşğulluq orqanları tərəfindən işəgötürənlərdən boş iş yerləri haqqında məlumatlar toplanılır və bu məlumatlar əmək yarmarkalarında işaxtaranlara təqdim edilir.

Yarmarkalara hazırlıq dövründə həyata keçirilən təşkilati işlər, xüsusilə işəgötürənlərlə yaradılan qarşılıqlı əməkdaşlıq münasibətləri bu mühüm məşğulluq tədbirində işəgötürənlərin, işaxtaran vətəndaşların fəal iştirakını təmin edir.

Şahbuz Rayon İcra Hakimiyyətinin əməkdaşı Cəlal Paşayev çıxışında qeyd edib ki, son illərdə rayonun sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlər əhalinin məşğulluğuna müsbət təsir göstərib, bunun da nəticəsində yüzlərlə insan müvafiq işlə təmin olunub. Keçirilən əmək yarmarkalarına işaxtaranların marağının böyük olması onu göstərir ki, onlarda bu yarmarkalarda ixtisaslarına müvafiq iş tapmalarına böyük inam vardır.

Sonra yarmarkaya gələnlər onlara təqdim olunan vakant iş yerləri ilə tanış olublar. 18 təşkilatdan 95 boş iş yerinin çıxarıldığı yarmarkada 24 nəfərə işə göndəriş verilib.

Qeyd edək ki, növbəti əmək yarmarkası bu gün Culfa rayonunda keçiriləcək.

**✍ Səbuhi HƏSƏNOV**

## "Molla Nəsrəddin" jurnalının 110 illiyi qeyd olunub

*Görkəmli yazıçı-dramaturq Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərindəki ev-muzeyində Azərbaycanda ilk satirik məcmuə olan "Molla Nəsrəddin" jurnalının 110 illiyinə həsr olunmuş tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova mətbuatımızın tarixində ilk satirik jurnal olan "Molla Nəsrəddin"in yaranmasından, onun redaktoru, böyük ədib Cəlil Məmmədquluzadənin xidmətlərindən danışıb. Bildirib ki, bu jurnalın nəşri ilə XX əsrin əvvəllərində Azərbaycan mətbuatının tarixində yeni bir dövrün əsası qoyulub.



Qeyd olunub ki, 110 il bundan əvvəl "Molla Nəsrəddin"in nəşrə başlaması təkcə Azərbaycanda deyil, Yaxın və Orta Şərqdə, bütün İslam dünyasında mühüm hadisə idi. Müəyyən fasilələrlə jurnal 1906-1918-ci illərdə Tiflisdə, 1920-1921-ci illərdə Təbrizdə, 1922-1931-ci illərdə isə Bakıda nəşr edilib.

Vurğulanıb ki, "Molla Nəsrəddin" jurnalının nəşrinə başlamaqla Cəlil Məmmədquluzadə həm Azərbaycanda, həm də Yaxın Şərqdə satirik jurnalistikanın əsasını qoyub. Jurnalda təbliğ olunan dərin demokratiya və azadlıq ideyaları dərgiyə ümumxalq məhəbbəti, beynəlxalq aləmdə böyük nüfuz qazandırıb. Jurnalın Rusiya ilə yanaşı, Asiya və Avropa ölkələrində, Amerikada abunəçiləri var idi.

Tədbirdə filologiya üzrə elmlər doktoru Hüseyn Həşimli "Ümummilli liderimiz Heydər Əliyev "Molla Nəsrəddin" haqqında", Cəlil Məmmədquluzadənin ev-muzeyinin direktoru Aytən Ələkbərova "Molla Nəsrəddin" jurnalının yaranması", filologiya üzrə fəlsəfə doktoru Aygün Orucova "Molla Nəsrəddin şeir məktəbinin banisi" mövzularında məruzələrlə çıxış ediblər.

Sonda Azərbaycan Respublikasının Xalq artisti Şirzad Abutalıbovun və Naxçıvan Musiqi Kollecinin tələbələrinin ifasında "Qəm pəncərəsi" filmindən bir səhnə göstərilib, Cəlil Məmmədquluzadənin ev-muzeyinin ekspozisiyasına baxış olub.

**Xəbərlər şöbəsi**

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

## Naxçıvanda geniş yayılmış qadın geyim formaları haqqında nə bilirik?

***Naxçıvanda əvvəllər istifadə olunan kişi geyimlərindən dəfələrlə söhbət açmışdıq. Bu yazımızda isə Naxçıvanın qədim qadın geyimləri barədə danışacağıq.***



Qeyd edək ki, azərbaycanlı qadınların geyiminin ayrılmaz hissəsi olan baş geyimləri də özünün rəngarəngliyi ilə seçilirdi. Qadın baş geyimləri – baş örtükləri və baş bəzəkləri olmaqla, 2 hissəyə ayrılır. Baş örtükləri, öz növbəsində, gigiyenik, mühafizə və bəzək funksiyası daşımaqla üç qrupa bölünür.

Gigiyenik funksiya daşıyan baş geyimlərinə cuna, fitə, qaşbənd (qəşbənd), ləçək, tül, çütkü, araqçın, xınabənd, qıyqac, təsək aiddir.

Mühafizə funksiyası daşıyan baş geyimləri – tül, çütkü, örpək, yaylıq, kəlağayı, araqçın, çadradır. Qeyd edək ki, bu qrupa daxil olan yaylıqların növləri də var: şal yaylıq, ipək yaylıq, kişmiri şal (Kəşmir şalı), heyratı kəlağayı, tirmə şal, boğazaltı, qarmaq, dingə, rübənd, niqab, duvaq.

Bəzək funksiyası daşıyan baş geyimlərinə başlıq, örpək, qaz-qazı, naz-nazı, araqçın, çutqu qabağı, baş bağı, boğazaltı, qarmağı misal göstərə bilərik.

Bu geyimlərin bir çoxundan Naxçıvanda da istifadə edilib. Oxuduğumuz ədəbiyyatlardan aydın olur ki, "qaşbənd"dən (qəşbənd) Naxçıvanda daha çox istifadə edilib.

Rübənd də Naxçıvanda geniş yayılmış baş geyim növüdür. Zəngin təbəqə qadınları isə çalmanın üstündən dingə taxardı.

XIX əsrdən başlayaraq Naxçıvanda naxışlı Ordubad ipəyindən hazırlanan kəlağayılar istehsal edilib.

XVII əsr qadın baş geyimlərini öyrənmək üçün həmin dövrün səyyahlarının qeydlərinə istinad edilə bilər. Məsələn, həmin dövrə aid miniatürlərdə müxtəlif qadın tacları da təsvir edilib. Qadınların tacı örpəyin üstündən qoyulur və kişi tacından arxaya çıxıntısı olması ilə fərqlənirdi. Bu tacların arxası hörük kimi uzadılıb yuxarı qaldırılırdı. Övliya Çələbi "Səyahətnamə" əsərində yazır: "Bu tipli qadın baş geyimləri Təbriz və Naxçıvanda çox geniş yayılmışdı. Naxçıvanda bu tipli hündür papaqların üstündən qadınlar ağ örtük örtürdülər. Buranın nəfis qadın baş örtükləri Naxçıvandan çox-çox uzaqlarda məşhur idi. Naxçıvan gözəlləri ağ rəngdədir. Başlarına sivri uclu araqçın geyir, üzərindən ağ duvaq örtürdülər".

Naxçıvanda olan ayaq geyimləri içərisində isə çust və çarıq daha çox istifadə olunurdu. Bundan başqa, başmaqlar, uzun çəkmələr də hazırlanırdı. Keçi dərisindən hazırlanan çəkmələrə xalq içərisində "xrom çəkmə" də deyilirdi.

Naxçıvanın qədim qadın geyimlərində, adətən, innabı, yaşıl, gümüşü rənglərə üstünlük verilib. Geyim dəstindəki rənglər ən kiçik detallara qədər dəqiqliklə və uyğun çalarlarda seçilirdi. Geyim dəstinin ayrı-ayrı elementləri güllü parçadan tikilirdisə də, mütləq tox və sakit rənglər seçilirdi. Zərif bəzəklər, zəncirələr və şah-pəsəndələrlə bəzəmək, muncuqlu tikmə, burmametallarla tikmələr və ümumiyyətlə, bütün tikmə texnikalarından istifadə etməklə hazırlanan geyimlər nə qədər zəngin və gözəl görünsə də, bütövlükdə, geyim dəstləri öz ciddiliyi və ağırlığı ilə ətraf mühitdə geyimi daşıyan arasında bir sərhədə çevrilirdi. Tumanın ətəyi xüsusi zövqlə bəzədilir, bunun üçün gümüş və muncuqlu tikmədən istifadə edilirdi. Arxalığın və ya küləcənin də bütün tikiş xətləri boyunca zərif bəzək tikilirdi. Bu məqsədlə, əsasən, zəncirbəndlərdən istifadə edilirdi. Muncuqlu tikmə texnikasından istifadə edilərkən, əsasən, nəbati naxışlar işlədilirdi.

Qadın üst geyimləri içərisində çəpkənlər xüsusi yer tuturdu. Bunlar görünüşdə üst tumanla birlikdə kostyumu xatırladırdı. Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılan çəpkən növləri bu baxımdan maraqlıdır. Buradakı çəpkənlərə tikmədən naxış vurulmuşdur. Bu geyim növləri sadə və cəlbedicidir.

Üst geyim növlərindən olan ləbbadələr çəpkən kimi çiyin geyim növünə daxildir. Ləbbadə qolunun geniş və qısa olması ilə çəpkəndən fərqlənir. Ləbbadələr, əsasən, sadə və güllü parçalardan tikilir, qollarının kənarları gözəl naxış nümunələri ilə bəzədilirdi.

Qadınlar arasında geniş yayılmış geyimlərdən biri də arxalıq idi. Arxalıq da çəpkən kimi astarlı və belə qədər bədənə kip biçilirdi. Arxalığa beldən aşağı hissədə büzmə, yaxud qırçınlı müxtəlif endə ətək tikilirdi. Bəzi arxalıqlar gen və düz biçilirdi, yan hissədə isə çapığı olurdu.

"Küləcə" adlanan qadın üst geyimi biçim etibarı ilə qadın arxalığının bir növüdür. Naxçıvan bölgəsində xüsusilə geniş yayılmışdır. Bahalı qalın parçadan (məxmər, tirmə şal, xara, zərxara və sair) tikilən küləcəyə sətin və ya çitdən astar çəkilirdi. Küləcənin yaxası, bel calağı, ətəyi və biləkağzı çox vaxt güləbətin, muncuq, pilək və sair tikmə ilə bəzədilirdi.

Üst geyim növlərindən biri də tumandır. Azərbaycanlı qadının geydiyi tumanın uzunluğu, Naxçıvan-Ordubad zonasından başqa, topuğa qədər olurdu. Naxçıvan-Ordubad zonasında qadınlar nisbətən qısa tuman geyirdilər. Tuman 112 taxta müxtəlif naxışlı ipək və ya yun parçalardan tikilirdi. Üst tumandan başqa, onun altından geyilən tumanlara ara tumanı deyilirdi. Tumanlar büzməli, yaxud qırçınlı olub, lifəsinə tumanbağı keçirilirdi. Keçi sapından toxunmuş tumanbağının iki baş tərəflərində rəngli ipək və güləbətin saplardan hazırlanmış qotazları olurdu. Tumanlar çitdən tutmuş tirməyə qədər hər cür parçalardan tikilirdi. Tumanın ətəyinə başqa parçadan köbə, müxtəlif baftalar, zəncirə və sair vurulurdu.

*Geyimlər insanın daxili aləminin xarici təzahürüdür. İnsanların geyimlərinə baxaraq onların xarakteri haqqında ilkin qənaətə gəlmək mümkündür. Burada ataların "insanı geyiminə görə qarşılayıb, ağlına görə yola salarlar" deyimi lap yerinə düşür. Tarixən bütün Şərq ölkələrində insanı geyiminə görə qarşılayıblar. Günümüzdə də bu ənənə bir çox ölkələrdə mövcudluğunu saxlayır.*

**Nərgiz İSMAYILOVA**

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində voleybol üzrə kişilər arasında keçirilən muxtar respublika birinciliyinə yekun vurulub.***

## Voleybol birinciliyi başa çatıb



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Voleybol Federasiyasının birgə təşkil etdiyi birincilik 3 gün davam edib.

Muxtar respublikanın şəhər və rayonlarının 8 komandasının mübarizə apardığı birinciliyin oyunları iki yarımqrupda keçirilib. Reqlamentə əsasən, "A" qrupunu lider kimi başa vuran "Şahbuz" komandası yarımfinal mərhələsində "B" qrupunun ikincisi "Şərur"la, "B" qrupunun lideri "Sədərək" komandası isə "A" qrupunu ikinci pillədə tamamlayan "Ordubad"la üz-üzə gəliblər. Gərgin keçən yarımfinal görüşlərindən sonra "Şahbuz" "Şərur"u (3:1), "Sədərək" isə "Ordubad"ı (3:0) məğlub edərək finalda oynamaq hüququ əldə ediblər.

Birinciliyin son günündə ilk olaraq meydana Ordubad və Şərur voleybolçuları çıxıblar. Gərgin keçən matçda "Şərur" komandası 3:2 hesabı ilə qalib gələrək birinciliyi üçüncü pillədə başa vurub. Açıq birinciliyin həlledici qarşılaşması isə böyük ajiotaja səbəb olub. Belə ki, "Şahbuz" komandası güclü rəqibi "Sədərək" komandasını quru hesabla (3:0) məğlub edərək qalib adını qazanıb.

Sonda birincilikdə yer tutan komandalara diplom və hədiyyələr təqdim olunub.

***Naxçıvan şəhərindəki "N" hərbi hissədə ümumtəhsil məktəblərinin şagirdləri arasında "Şahin" hərbi-idman oyununun Naxçıvan Muxtar Respublikası üzrə zona birinciliyi keçirilib.***

## "Şahin" hərbi-idman oyununun Naxçıvan Muxtar Respublikası üzrə zona birinciliyi keçirilib





Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, muxtar respublikada yerləşən Əlahiddə Ümumqoşun Ordusunun, Naxçıvan Muxtar Respublikası Təhsil və Fövqəladə Hallar nazirliklərinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə keçirilən yarışda əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Yarışın açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Nicat Babayev "Şahin" hərbi-idman oyununun keçirilməsində məqsədin böyüməkdə olan nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmasına diqqəti artırmaqdan, məktəb şagirdlərini hərbi-idman oyunlarına cəlb etməklə onların ordu sıralarında hazırlanmasına kömək göstərilməsindən ibarət olduğunu bildirib, yarış iştirakçılarına uğurlar arzulayıb.

Sonra yarışlara start verilib. Hərbi-idman oyununda komandalar sıra hazırlığı, patron darağının doldurulması və boşaldılması, avtomatın sökülməsi və yığılması, tüfəngdən hədəfə atəş açmaq, fiziki hazırlıq, manelərin dəf olunması, mülki müdafiə hazırlığı və qərargah çadırının qurulması mərhələləri üzrə qüvvələrini sınayıblar.

Yarışın nəticəsinə əsasən, Culfa rayonunun Saltaq kənd tam orta məktəbinin komandası I yerə, Ordubad şəhər M.Füzuli adına tam orta internat məktəbinin komandası II yerə, Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin komandası isə III yerə layiq görülüblər.

Sonda qalib komandalar təşkilatçıların diplom, fəxri fərman və kubokları ilə mükafatlandırılıblar.

Qeyd edək ki, birincilikdə I və II yeri tutan komandalar may ayında keçiriləcək respublika mərhələsinə vəsiqə qazanıblar.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 307